





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



**Sentyabrın 27-də torpaqlarımızın azadlığı ilə başa çatan Vətən müharibəsinin başlanmasının bir ili tamam olur. Həmin gün Ermənistanın təxribatlarından sonra Azərbaycan Ordusu başlatdığı əks-hücum əməliyyatlarını Zəfərlə başa vurdu. Sentyabrın 27-si həm də Anım Günüdür. Xalqımız hər zaman qəhrəman övladlarını ehtiramla anır, xatirələrini uca tutur. Milli Məclisin deputatlarının açıqlamaları bu barədədir.**

## Şərəf və iftixar tariximiz

### Qəhrəman Vətən övladlarına ehtiram və qayğının nümunəsi

***Siyavuş NOVRUZOV,***
*Milli Məclisin Regional məsələlər komitəsinin sədri:*

- Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli liderliyi, xalqımızın milli birliyi - həmrəyliyi, ordumuzun qüdrəti, əsgər və zabitlərimizin şücaəti haqq-ədaləti bərpa etdi, xalqımızın uzun illər ərzində çəkdiyi yurd həsrəti başa çatdı. 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olan torpaqlarımızın azad edilməsi ilə unudulmaz Zəfər salnaməsi yaradıldı, Qələbə dastanı yazıldı. Bütün dünya Azərbaycan dövlətinin gücünü, xalqımızın mübarizə ruhunu gördü. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu qələbə eyni zamanda tarixi ədalətin və milli ləyaqətin bərpası oldu.

Döyüş meydanında qətiyyətlə və əzmlə mübarizə aparan Azərbaycan Silahlı Qüvvələrinin igid əsgər və zabitlərinin cəsarət və fədakarlıq nümunəsi ortaya qoyması xalqımızın qürur mənbəyidir. Biz iftixar edirik ki, onlar Vətən qarşısında borclarını şərəflə və ləyaqətlə yerinə yetirdilər, gələcək nəsillər üçün örnək vətəndaşlıq nümunəsi yaratdılar. Ölkəmizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn və sağlamlıqlarını itirərək qazi olan qəhrəman Vətən övladlarına sonsuz minnətdarıq.

Bu gün Azərbaycan dövləti və cəmiyyəti şəhid ailələrinə, qazilərimizə xüsusi hörmət, yüksək diqqət və qayğı ilə yanaşır. Dövlət başçısı bu istiqamətdə son bir neçə ay ərzində müvafiq sənədlər imzalayıb. Yeri gəlmişkən, Prezident İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının ərazisində yaşayan Vətən müharibəsi ilə əlaqədar şəhid ailəsi statusu almış, habelə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması haqqında" sərəncam imzalaması olduqca mühüm əhəmiyyətə malik təqdirəlayiq haldır.

Vətən müharibəsində tarixi qələbənin əldə olunmasında digər bölgələrdə olduğu kimi, respublikamızın Ermənistanla ən böyük sərhədə malik bölgəsi Naxçıvanın da qəhrəman övladları yüksək rəşadət nümayiş etdiriblər. Sıravi əsgərdən polkovnik rütbəsi daşıyan zabitə qədər Naxçıvan hərbçiləri ordumuzun xilaskarlıq missiyası çərçivəsində cəsarətlə döyüşdülər, bəziləri şəhidlik, bəziləri isə qazilik zirvəsinə yüksəliblər.

Dövlət başçısının bəhs olunan sərəncamı mühüm sosial və mənəvi əhəmiyyətə malik olmaqla, yüksək hörmət, ehtiram və qayğı nümunəsidir. Bütövlükdə, Vətənə şərəflə və ləyaqətlə xidmət edərək böyük qələbənin qazanılmasında mühüm rol oynayan Naxçıvanın qəhrəman övladlarının, şəhidlərimizin ailələrinin hərtərəfli dövlət qayğısı ilə əhatə olunması milli birliyimizi gücləndirən çox önəmli amillərdəndir.

### Tarixi Zəfərin yaratdığı reallıqlar dünyanın diqqətindədir

***Aydın MİRZƏZADƏ,***
*Milli Məclisin deputatı:*

- 27 sentyabr tarixi həmişə Azərbaycan xalqının tarixində çox önəmli bir yer tutacaq. Həmin gün Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu bütün cəbhə boyu əks-hücuma keçərək 44 gün ərzində erməni qoşunlarını Azərbaycan ərazisindən qovdu, ölkəmizin ərazi bütövlüyünü bərpa etdi.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyevin apardığı siyasət Azərbaycan dövlətini gücləndirdi. Azərbaycan Silahlı Qüvvələri qarşıya qoyulacaq vəzifələri yerinə yetirəcək qüvvəyə çevrildi. Azərbaycan xalqının milli birliyi təmin olundu. Azərbaycanın bütün resursları ərazi bütövlüyümüzün təmin olunmasına istiqamətləndirildi. Aparılan siyasət Ermənistanın növbəti təxribatının qarşısını alaraq Vətən müharibəsinin başlanmasına, ərazi bütövlüyümüzün təmin olunmasına imkan yaratdı. 44 gündə bir gün də olmayıb ki, Azərbaycan Silahlı Qüvvələri tutduqları mövqedən geri çəkilsinlər. Ermənistana layiq olduğu yer göstərildi. Bu işdə milli birliyimiz, milli ideologiyamız əsas rol oynadı. Cənab Prezidentin liderlik qabiliyyəti, onun Azərbaycanın maraqlarını uğurla həyata keçirməsi, hər bir azərbaycanlının etimadını qazanaraq yeni bir tarix yazması bizim üçün çox böyük şərəfdir.

27 sentyabrdan başlanan şərəfli yol qələbəmizlə başa çatdı. Şuşamız, digər torpaqlarımız işğaldan azad edildi. Müharibədən sonrakı dövrdə Azərbaycan işğaldan azad olunan torpaqlarda infrastruktur layihələri həyata keçirir. Şuşa dirçəldilir. Füzuli Beynəlxalq Hava Limanına ilk təyyarə enişi oldu. Ərazilərimizin minalardan təmizlənməsi, infrastrukturun yenidən qurulması, məcburi köçkünlərin geri qayıtması üçün işlərin görülməsi onu söyləməyə əsas verir ki, 30 il düşmən tapdağı altında qalan, amma azad ediləcəyinə hər zaman əmin olunan bu torpaqlarda yeni həyat başlayıb. Azərbaycan quruculuq işləri ilə, ilk növbədə, yaradıcı xalq olduğunu göstərir. Ermənistan işğal etdiyi torpaqları əgər dağıdırdısa, su, elektrik xətlərini, qəbirüstü daşları söküb aparırdısa, Azərbaycan bu ərazilərdə nümunəvi yaşayış məskənləri salır. Dünya Ermənistanla Azərbaycanın, Ermənistan cəmiyyəti ilə Azərbaycan cəmiyyətinin fərqini görür. Torpaqlarımızın bərpa edilməsi, yaşayış üçün rahat şəraitin yaradılması göstərir ki, biz bu torpaqlara əbədi gəlmişik. Azərbaycan qısa zamanda azad olunmuş torpaqlarımızı bərpa edəcək və dünya nümunəvi şəhərlərin, kəndlərin, turizm mərkəzlərinin, universitetlərin, fermer təsərrüfatlarının yarandığı bir bölgəni görəcək.

Azərbaycan xalqı torpaqlarımızın işğaldan azad edilməsi üçün həyatını qurban verən 3000-ə qədər şəhidimizi böyük ehtiramla xatırlayır. Onlar bizim tariximizin qəhrəmanları, hər birimiz üçün nümunədirlər. Onların ailələri, yaxınları bizə əmanətdir. Dövlətimiz onlara yüksək qayğı göstərir. Qazilərimizin müalicəsi, onların sosial problemlərinin həlli daim diqqətdədir.

Vətən müharibəsinin nəticələri digər dövlətlərə də kiçik bir dövlətin öz gücünə arxalanaraq suveren hüquqlarını bərpa etməsinin mümkünlüyünü göstərdi. Azərbaycan bu gün tarixi zəfərinin yaratdığı reallıqlarla dünyanın diqqətini çəkir.

### Tariximizin və dövlətçiliyimizin şərəf salnaməsi

***Novruzəli ASLANOV,***
*Milli Məclisin deputatı,*
*Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti:*

- Vətən müharibəsi 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad olunması ilə nəticələndi. 44 gün davam edən savaşda xalqımızın qazandığı möhtəşəm zəfər yalnız müasir müstəqilliyimizi deyil, bütün tariximizi şərəfləndirdi. Bu qələbə dövlətçiliyimizə yeni qəhrəmanlıq salnaməsi kimi həkk olundu. Bütün bəşəriyyət xalqımızın öz milli hüququ uğrunda mübarihə əzminin, Prezident İlham Əliyevin görkəmli siyasi lider və Ali Baş Komandan kimi öz dövlətinin milli marağını qətiyyətlə təmin etməsinin şahidi oldu.

Bütün dövlətlər və təşkilatlar Qarabağı Azərbaycan ərazisi kimi tanısalar da, dövlətimiz və xalqımız 30 ilə yaxın bir dövrdə beynəlxalq ikili standartlardan və erməni təəssübkeşliyindən irəli gələn siyasi-mənəvi iztirabla üzləşmişdi. Ermənistanın işğal siyasətinə son qoyulmasını tələb edən əsas beynəlxalq hüquqi sənədlər kimi 1993-cü ildə BMT-nin 4 qətnaməsi qəbul olunsa da, 27 il kağız üzərində qaldı. Qətnamələrin qəbuluna baxmayaraq BMT işğalçı Ermənistana təzyiq göstərməkdə acizlik nümayiş etdirdi, sadəcə tərəfləri sülhə çağıran bəyanatlarla işini bitmiş hesab etdi. Vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun üzvləri isə Azərbaycan torpaqlarının işğal altında qalmasına tamamilə laqeyd yanaşdılar.

Üzləşdiyi ikili standartlara, haqsızlıqlara, siyasi-mənəvi iztirablara baxmayaraq Azərbaycan xalqı 30 ilə yaxın bir dövrdə öz ümidini bir an belə itirmədi. Çünki inanırdı və əmin idi ki, Ulu Öndər Heydər Əliyevlə başlanan və İlham Əliyevlə davam edən mükəmməl siyasi kurs mütləq torpaqlarımızı işğaldan azad edəcək, Ermənistanın təcavüzkar siyasətinə son qoyacaq. Ulu Öndərin siyasi kursu dövlətimizi yüksəltməklə yanaşı, gələcək qələbəmizin şərtlərini təmin edərək, torpaqlarımızın işğaldan azad ediləcəyi günü sürətlə yaxınlaşdırdı.

Qələbəyə gedən yolda əsas vəzifələrdən biri güclü iqtisadi potensialın yaradılması idi. Azərbaycana rəhbərliyinin ilk günlərindən müasir dövrün tələblərinə uyğun olaraq iqtisadi inkişaf strategiyasını müəyyən edən İlham Əliyevin apardığı islahatların və uğurlu enerji siyasətinin nəticəsində respublikamızın yüksəlişi bu yolda ən böyük uğurlarımızdır. Çünki məhz bu yüksəliş və dövlətimizin maliyyə-iqtisadi imkanlarının artması Vətən müharibəsindəki qələbəmizi təmin edən ordumuzun döyüş qabiliyyətinin yüksəldilməsində müstəsna rol oynadı. Silahlı Qüvvələrin tərkibindəki bütün qoşunların döyüş imkanlarının artırılması üçün qabaqcıl dövlətlərlə uğurlu əməkdaşlıq həyata keçirildi. İstər quru qoşunlarının, istər hərbi hava qüvvələrinin, istərsə də hava hücumundan müdafiə sistemlərinin döyüş imkanları ən müasir tələblər səviyyəsinə çatdırıldı. Bu mənada İlham Əliyevin rəhbərliyi ilə əldə olunan inkişafın əsas göstəricilərindən biri ordumuzun qüdrətlənməsi, döyüş qabiliyyətini artırması idi. Azərbaycan ictimaiyyəti isə əmin idi ki, sülh danışıqları nəticəsiz qalacağı təqdirdə ordumuz öz sözünü deyəcək.

Prezident İlham Əliyevin Vətən müharibəsinə gedən yolda ən böyük uğurlarından biri də xalqın sevgisini qazanan lider olmasıdır. Bu illər ərzində cənab İlham Əliyevin hər addımda məhz vətəndaş maraqlarını uca tutması, verdiyi bütün vədləri yerinə yetirməsi cəmiyyətimizin öz rəhbərinə olan etimadını daha da artırıb. Təsadüfi deyil ki, bu etimad prezident seçkilərində İlham Əliyevə verilən səslərin sayının artım dinamikası ilə də özünü təsdiq edib. Əlbəttə, xalqın öz rəhbərinin ətrafında səfərbər olması nəticə etibarilə Azərbaycandakı milli həmrəyliyi də gücləndirib.

Bu gün dönüb geriyə baxanda görürük ki, İlham Əliyevin torpaqlarımızın azad edilməsinə istiqamətlənmiş fəaliyyəti komleks xarakter daşıyıb. Ordumuzun döyüş imkanlarının artırılmasını prioritet məsələ kimi daim diqqət mərkəzində saxlayan, milli həmrəyliyi təmin edən dövlət başçısı Ermənistanın işğal siyasətinin beynəlxalq səviyyədə ifşa olunması üçün olduqca səmərəli siyasi-diplomatik fəaliyyət həyata keçirib. Bunun da nəticəsində yeni müharibənin olacağı təqdirdə dünya erməniliyinin başlada biləcəyi xarici təhdid və təzyiqlərin qarşısı alınıb, onlar neytrallaşdırılıb.

Beləliklə, 44 günlük Vətən müharibəsi Prezident İlham Əliyevin qətiyyətinin, ordumuzun yüksək döyüş qabiliyyətinin, hərbçilərimizin vətənpərvərliyinin və xalqımızın milli həmrəyliyinin təntənəsi oldu. Azərbaycan işğal siyasətindən əl çəkməyən, beynəlxalq hüquqa məhəl qoymayan Ermənistanı güc yolu ilə cəzalandırdı. İlham Əliyevin bu qələbəyə nail olmaq üçün həyata keçirdiyi mükəmməl hazırlıq işləri nəticəsində qarşımızda duran taleyüklü problem qətiyyətlə həll edildi.

Ötən il noyabrın 8-də Prezident İlham Əliyev xalqımıza müraciətində demişdir: "Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik. Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. Eşq olsun bizim əsgərlərimizə!"

Bəli, bu müharibədə torpaqlarımızı Ali Baş Komandanı İlham Əliyev olan Silahlı Qüvvələrimizin əsgərləri, zabitləri, çavuşları, gizirləri işğaldan azad etdilər. Onlar müharibənin ilk anından son gününə qədər işğalçıya divan tutdular, necə lazımdırsa onu cəzalandırdılar. Rəşadətlə döyüşən, düşmənə göz açmağa imkan verməyən oğullarımız qəhrəmanlıq simvoluna çevrildilər, döyüş meydanlarından bütün dünyaya göstərdilər ki, torpaq uğrunda mübarizə necə aparılır. Qəhrəman hərbçilərimiz bu yolda canlarını fəda etdilər, şəhid oldular.

Cəsarətin, qorxmazlığın nümunəsini yaradan şəhidlərimiz daim xalqımızın qəlbində yaşayacaq. 27 Sentyabr Anım Günündə bir daha şəhidlərimizin xatirəsini ehtiramla yad edir, onların ruhu qarşısında baş əyir, Tanrıdan rəhmət diləyirik. Şəhidlərimizin ruhu rahatdır, çünki uğrunda canlarından keçdikləri Vətən torpaqları azaddır. Şəhidlərimizin ruhu həm də ona görə rahatdır ki, əmanət qoyub getdikləri doğmalarının - valideynlərinin, övladlarının yanında qüdrətli Azərbaycan dövləti var. Şəhidlərin xatirəsi bizə nə qədər əzizdirsə, onların ailələrinin sosial rifahı, mənzil-məişət şəraiti də bir o qədər dövlətimizin diqqət mərkəzindədir. Bu sahədə ən gözəl nümunələri isə Azərbaycan Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ortaya qoyur.

Regionda yaranmış yeni reallıqlar fonunda bütün şərtləri qalib Azərbaycan diktə edir. Sentyabrın 23-də BMT Baş Assambleyasının 76-cı sessiyasının ümumi müzakirələrində videoformatda çıxış edən Prezident İlham Əliyev Azərbaycanın regionda yeni-yeni reallıqlar yaratdığını, yeni konfiqurasiya formalaşdırdığını bəyan etdi. Ermənistanın bu reallıqlarla barışmaqdan və onları qəbul etməkdən, 10 noyabr üçtərəfli bəyanatının bəndlərinə əməl etməkdən başqa yolu yoxdur. Bu mənada dövlət başçısı beynəlxalq ictimaiyyəti də bu prosesdə müsbət rol oynamağa, sülhün alternativinin olmamasını dərk etmək üçün Ermənistana çağırış etməyə səslədi.

İşğaldan azad edilmiş bütün ərazilərimiz sürətlə bərpa olunmaqdadır. Artıq Qarabağda və Şərqi Zəngəzurda işıq yanır, bulaqlar yenidən çağlayır. Şuşa dirçəlir, tarixi ənənələrini bərpa edir. Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə 11 dəfə səfər etməsi göstərir ki, dağıdılmış yurd yerlərimizin bərpası prioritet vəzifələr sırasındadır. Düşmənin vurduğu yaraların hamısı sağalacaq, azad olunmuş bütün şəhər və rayonlarımız tarixi şöhrətini özünə qaytaracaq.

### "Dəmir yumruq" həmişə yerindədir

***Könül NURULLAYEVA,***
*Milli Məclisin deputatı:*

- Azərbaycanın tarixi qələbəsi ilə başa çatan İkinci Qarabağ müharibəsinin başlanmasından bir il ötür. Ötən il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatlarının nəticəsi olaraq başlanan hərbi əməliyyatlar torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsinə çevrildi. Ordumuz Ermənistanın 30 ilə yaxın davam edən işğalına cəmi 44 günə son qoydu, düşmən döyüş meydanında darmadağın edildi, "dəmir yumruq" ona tarix boyu unutmayacağı maddi və mənəvi zərbə vurdu.

Bu müharibə, ilk növbədə, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətinin, siyasi müdrikliyinin və uzaqgörənliyinin təcəssümü kimi tarixə düşdü. Çünki respublikamıza rəhbərlik etdiyi ilk gündən cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyev yolunu layiqincə, inamla davam etdirərək torpaqlarımızın işğaldan azad ediləcəyi tarixi yaxınlaşdırdı. Azərbaycan Prezidentinin siyasi və iqtisadi kursunun, xarici siyasətinin əsas prioritetlərini məhz torpaqlarımızın azad olunması təşkil etdi. Dövlətimizin başçısı hər zaman çıxışlarında, görüşlərində bəyan edirdi ki, Azərbaycan öz ərazilərində ikinci erməni dövlətinin qurulmasına imkan verməyəcək və istənilən yolla torpaqlarını işğaldan azad edəcək. İlham Əliyev Azərbaycanı yüksəliş yoluna çıxarmaqla, iqtisadi inkişafı təmin etməklə, Ermənistanın işğal siyasətinin beynəlxalq səviyyədə hüquqi ifşasına nail olmaqla 44 günlük müharibədə qazandığmız qələbənin etibarlı təməllərini yaratdı.

Müharibə günlərində xalqımız bir daha öz rəhbərinin siyasi iradəsinin, qətiyyətinin, mətinliyinin, vətənpərvərliyinin və qəhrəmanlığının şahidi oldu. Cənab İlham Əliyevin müharibə günlərindəki sərkərdələrə xas davranışları xalqımızı öz liderinin ətrafında sıx səfərbər etdi, milli həmrəyliyimizi daha da gücləndirdi, sarsılmaz etdi. Azərbaycan Prezidenti 44 gündə bütün beynəlxalq təzyiqlərə sinə gərərək onları dəf etdi, müharibənin ilk günündən sonuna kimi dövlətimizin və xalqımızın milli mənafelərini qətiyyətlə təmin etdi. Ermənistan məhz İlham Əliyevin şərtləri əsasında kapitulyasiyaya imza atdı. Bu mənada 10 noyabr üçtərəfli bəyanatı hərbi qələbəmizin hüquqi təsdiqi olmaqla yanaşı, həm də tarixi siyasi-diplomatik uğurumuz oldu.

Biz torpaqlarımızı şəhidlərimizin, qazilərimizin canı, qanı hesabına azad etdik, ərazi bütövlüyümüzün təmin olunması uğrunda 3 minə yaxın Vətən övladı şəhidlik zirvəsinə ucaldı. Onlar bu müharibədə vətənpərvərlik salnamələri yazdılar, dastana döndülər, ata-babalarımızdan gələn qəhrəmanlıq ruhunu gələcək nəsillərə ötürdülər, millətimizin qüdrətini bütün dünyaya bəyan etdilər. Bir dövlət və xalq o zaman böyük olur ki, uğrunda canından və qanından keçənlər var. Türk şairi Mithat Camal Kuntayın yazdığı kimi, "Torpaq əgər uğrunda ölən varsa, vətəndir". Bəli, Azərbaycan xalqının başını dik tutmağa, öyünməyə, fəxr etməyə ən yüksək mənəvi haqqı var.

Xalqımız şəhidlərini daim uca tutacaq, onların adı hər zaman qəlblərdə yaşayacaq. Prezident İlham Əliyevin sərəncamı ilə Vətən müharibəsinin başladığı günün - sentyabr ayının 27-nin Anım Günü kimi qeyd olunması torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş şəhidlərimizə dərin ehtiramın göstəricisidir.

İkinci Qarabağ müharibəsi bəlli həqiqətlərin praktik təsdiqi olmaqla regionda yeni reallıqlar yaradıb. Ən mühüm həqiqətlərdən biri odur ki, Azərbaycan Ordusunun gücü və qüdrəti barədə söylənən fikirlər döyüş meydanında öz təsdiqini tapdı. Başqa bir həqiqət odur ki, Azərbaycan "Ermənistanın güclü ordusu var", "erməni xalqı döyüşkən xalqdır" kimi miflərin cəfəngiyyat olduğunu sübuta yetirdi.

İndi azad olunmuş Qarabağ və Şərqi Zəngəzur tikinti meydanını xatırladır. Bu mənada müharibədən sonrakı əsas reallıqlardan biri Azərbaycanın işğaldan azad etdiyi ərazilərini bərpa etməsi və yenidən qurmasıdır. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən hər bir layihə həm də döyüş meydanındakı qələbəmizin quruculuq meydanında davamı və rəmzi ifadəsidir.

"Dəmir yumruq" isə həmişə yerindədir. Prezident İlham Əliyevin dediyi kimi, əgər kimsə Ermənistanda revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha görəcək: "Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Əgər bizə qarşı hər hansı bir təxribat törədilərsə, cavabımız çox sərt olacaq, çox peşman olacaqlar və yenə də acı məğlubiyyətlə üzləşəcəklər".

### Prezident İlham Əliyevin inkişaf siyasəti qələbəmizi təmin etdi

***Müşfiq MƏMMƏDLİ,***
*Milli Məclisin deputatı:*

- Ermənistanın ağır hərbi-siyasi məğlubiyyətə uğradılması və 30 ilə yaxın işğal altında qalan ərazilərimizin azad olunması ilə nəticələnən İkinci Qarabağ savaşının başlanmasının birinci ili tamam olur. Cəmi 44 gün davam edən bu müharibədə Azərbaycan özünün beynəlxalq hüquqlarını, pozulmuş ərazi bütövlüyünü güc yolu ilə bərpa etdi, öz milli haqqına sahib çıxdı.

30 ilə yaxın idi ki, beynəlxalq ictimaiyyət, xüsusən problemin həllində vasitəçilik edən tərəflər münaqişənin güc yolu ilə həllinin mümkünsüzlüyünü təlqin edirdilər. Amma bu müddət ərzində bir dəfə də olsun işğala son qoyması üçün Ermənistana qarşı təzyiqlərin edilməsini görmədik. Vasitəçilər, beynəlxalq təşkilatlar bir dəfə də olsun işğalçı dövlətin vandallığına, Qarabağın tarixinin saxtalaşdırılmasına, işğal olunmuş ərazilərimizin qanunsuz məskunlaşdırılmasına, bu torpaqlardakı maddi sərvətlərin talanmasına etirazlarını bildirmədilər, həmişə susqunluq nümayiş etdirdilər.

Bütün bunlar erməni təəssübkeşliyindən irəli gələrək Azərbaycan torpaqlarını ilhaq etmək, Qarabağda ikinci erməni dövlətinin yaradılmasına nail olmaq niyyətindən başqa bir şey deyildi. Düşünürdülər ki, zaman keçdikcə Azərbaycan öz mövqeyindən çəkiləcək, Ermənistanın maraqlarına uyğun kompromislərə gedəcək. Amma bir məsələni unutdular ki, hələ zəif vaxtlarında belə öz mövqeyindən bir addım geri çəkilməyən Azərbaycan gücləndikdə torpaqlarını işğaldan azad etmək üçün daha qətiyyətli, daha əzmkar olacaq.

Belə də oldu. Öz yüksəlişi ilə Cənubi Qafqazın lideri olan, regionun hərbi baxımdan qüdrətli dövlətinə çevrilən respublikamız işğala güc yolu ilə son qoymaqla Qərb siyasi mərkəzlərinin onilliklər boyu müharibənin yolverilməzliyi barədə formalaşdırdıqları stereotipləri dağıtdı və göstərdi ki, heç vaxt ərazilərinin işğal altında qalmasına imkan verməycək. Bu müharibə ilə Prezident İlham Əliyev bir siyasi lider kimi dövlətinin və xalqının hüquqlarını güc yolu təmin etməyin nümunəsini ortaya qoydu.

Xüsusilə qeyd etmək lazımdır ki, cənab Prezident İlham Əliyevin həyata keçirdiyi kompleks inkişaf siyasəti bu qələbəni sürətlə yaxınlaşdırdı və reallığa çevirdi. Bu siyasət hər bir uğuru ilə torpaqlarımızın azad edilməsi üçün tarixi şəraitin formalaşmasını təmin etdi, ərazi bütövlüyümüzün bərpa olunmasının konturlarını cızdı. İlham Əliyev Ali Baş Komandan kimi ordumuzu qarşısında dayanan bütün vəzifələri yerinə yetirməyə qadir mükəmməl hərbi gücə çevirdi, ötən illər ərzində siyasi-diplomatik ustalıqla davamlı şəkildə Ermənistanın ifşasına nail oldu.

Vətən müharibəsində isə Prezident İlham Əliyevin torpaqlarımızın azadlığı uğrunda əzmkarlığı, ilk gündən nümayiş etdirdiyi hərbi-siyasi iradə hər bir azərbaycanlını öz rəhbərinin ətrafında daha da sıx birləşdirdi. Ali Baş Komandanın xalqa hər bir müraciəti tarixi hadisəyə çevrilərək, xalqımızı daha da ruhlandırdı, Ermənistan üzərində qələbəni sürətlə yaxınlaşdırdı və reallığa çevirdi.

İşğaldan azad olunmuş torpaqlarımızın hər qarışı bizim üçün əziz, həm də müqəddəsdir. Çünki bu torpaqlara onun azadlığı uğrunda canından keçən şəhidlərimizin qanı hopub. Qəhrəman Vətən övladları bu torpaqlar uğrunda ölümün gözünə dik baxdılar, canlarını fəda etməkdən belə çəkinmədilər. Öz qanları ilə tariximizə min illərin o üzündə şərəflə xatırlanacaq bir salnamə yazdılar. Şəhidlərimizin qanı yerdə qalmadı, intiqamları artıqlaması ilə alındı. Şəhidlərimizin uğrunda mübarizə apardıqları vətən torpaqları isə artıq işğaldan azaddır. İndi bu torpaqlardan öz sahiblərinin səsi gəlir. Bu torpaqların sahibi olan xalqımız onu yenidən qurur, bərpa edir.

Prezident İlham Əliyevin hər zaman çıxışlarında bəyan etdiyi kimi, Qarabağda ikinci erməni dövlətinin yaradılmasına imkan verilmədi. 44 günlük müharibədəki qələbə ilə Ermənistanın baş naziri Nikol Paşinyanı kapitulyasiya aktına imza atmağa məcbur edən Prezident İlham Əliyev Dağlıq Qarabağ problemini tam aradan qaldırdı. Artıq Azərbaycanın ərazi bütövlüyü bərpa edilib, üçtərəfli bəyanatdan irəli gələrək regionda yeni əməkdaşlıq imkanları yaranıb. Bütün bunlar həm də Cənubi Qafqazda yeni reallıqların ortaya çıxması deməkdir. Regionun rifahı və inkişafı da bu reallıqların davam etdirilməsindən keçir. Ermənistanın rəhbərliyi və bu ölkədəki revanşist dairələr bu reallıqları qəbul etməyə məhkumdurlar. Çünki müharibənin qalibi və regionun aparıcı dövləti olan Azərbaycan Ermənistana başqa imkan buraxmayıb.

44 günlük Vətən müharibəsinin nəticəsi göstərdi ki, Azərbaycanda həyata keçirilən siyasi kurs dövlətimizi və xalqımızı qələbələrə aparan alternativsiz yoldur. Qarşıda isə bizi yeni qələbələr və uğurlar gözləyir. Qarabağın və Şərqi Zəngəzurun bərpası, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtması ilə Vətən müharibəsindəki qələbə sevincimiz daha da yüksələcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***